*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 217-226*
https://doi.org/10.62837/2024.3.217

**XƏLİLZADƏ AYTAC**
*Lənkəran Dövlət Universiteti*
*Hənifə Abdullayev küç.*
*aytacxelilzade60@gmail.com*

# ORTA ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ÜZVLƏNMƏYƏN KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN TƏDRİSİ

**Xülasə**

Məqalədə Azərbaycan dilinin tədrisi zamanı diqqət yetirilməsi nəzərdə tutulan mövzulardan biri olan üzvlənməyən köməkçi nitq hissələrinin öyrədilməsi, onlarda durğu işarələrinin işlənmə məqamlarına diqqət yetirilməsi, bədii ədəbiyyat nümunələri əsasında öz əksini tapmışdır. Qeyd edilmişdir ki, üzvlənməyən köməkçi nitq hissələrinə dördü – bağlayıcı, ədat,modal sözlər və nida aiddir. Qoşmanın üzvlənməyən nitq hissəsi olmadığı göstərilmişdir. Eləcə də ,bu köməkçi nitq hissələrinin əsas nitq hissələri ilə omonimliyi, onların fərqləndirilməsi yeni iş üsulları ilə göstərilmişdir. Bu məqalədə üzvlənməyən köməkçi nitq hissələrində vergülün düzgün qoyulması məsələsinə də nəzər salınmışdır. Bundan əlavə, belə köməkçi nitq hissələrinin sintaktik təhlil edilmədiyi də şagirdlərin nəzərinə çatdırılıb.

Orta ümumtəhsil məktəblərində şagirdlər tərəfindən üzvlənməyən köməkçi nitq hissələri mövzusu çətin mənimsənilir. Məhz buna görə də məqalədə belə sözlərin şagirdlərə yazı taxtasında nümunələr əsasında izah edilməsi qaydalarından bəhs edilmişdir. Həmçinin məqalədə nümunələr bədii ədəbiyyatdan seçilmişdir ki, bu da ədəbiyyatla inteqrasiyanı təmin edir. Məqalə tədrislə bağlı olduğundan burada yeni dərsin aparılması qaydalarından danışılmışdır.

**Açar sözlər**: üzvlənməyən nitq hissələri, qoşma, bədii ədəbiyyat

**AYTAJ KHALILZADEH**

# TEACHING NON-MEMBER AUXILIARY SPEECH PARTS IN SECONDARY GENERAL EDUCATION SCHOOLS

**Summary**

İn the article, one of the topics to be paid to during the teaching of the azerbaijani language is the teaching of auxiliary parts of speech that to do not join, paying attention to the points of development of punctuation marks in them, and the examples of fiction literature. İt was noted that the auxiliary parts of speech that do not join include four-conjunctions, adverbs, modal words and exclamation. İt is shown that the affix is not a part of speech that does not join. Also, the homonymy of these auxiliary parts of speech with the main parts of speech, their differentiation is shown by new work methods. This article also looks at the issue of correct punctuation in auxiliary parts of speech that are not members. İn addition, it was brought to the attention of the students that such auxiliary parts of speech are not

syntactically analyzed. İn secondary general education schools, the topic of auxiliary parts of speech that are note joined by students is difficult to master. That is why the article talks about the rules of explaining such words to students based on examples on the blackboard. Also, examples in the article are selected from fiction, which provides inegration with literature. Since the article is about teaching, the rules of conducting a new lesson were discussed here.

**Key Words:** non-membered parts of speech, connector, fiction

**ХАЛИЛЗАДЕ АЙТАДЖ**

**В СРЕДНИХ ШКОЛАХ ОБУЧЕНИЕ НЕСВЯЗАННЫМ ВСПОМОГАТЕЛЬНЫМ ЧАСТЯМ РЕЧИ»**

**РЕЗЮМЕ**

В статье одной из тем, на которую следует обратить внимание при обучении азербайджанскому языку, является обучение вспомогательным частям речи, которые не соединяются, обращая внимание на точки развития в них знаков препинания, на основе примеров. Отмечено, что к вспомогательным частям речи, не соединяющимся, относятся четыре - связка, наречие, модальные слова и восклицательный знак. Показано, что вложение не является аффилированной частью речи. Также новыми приемами работы проявляется омонимия этих вспомогательных частей речи с основными частями речи, их дифференциация.В данной статье также рассматривается вопрос правильной расстановки запятых во вспомогательных частях речи, не являющихся членами. Кроме того, до внимания учеников было доведено, что подобные вспомогательные части речи не подвергаются синтаксическому анализу.

В средних общеобразовательных школах тема вспомогательных частей речи, не соединяющихся учащимися, осваивается с трудом.Именно поэтому в статье говорится о правилах объяснения таких слов учащимся на примерах на доске. Также примеры в статье выбраны из художественной литературы, что обеспечивает интеграцию с литературой. Что касается уроков статьи, то здесь обсуждались правила использования нового урока.

**Ключевые слова:** неаффилированные части, вложение, художественная литература

**Cədvəl 1.**

| | |
|---|---|
| Sinfin təşkili | 5 dəq |
| Motivasiya | 7 dəq |
| Tədqiqatın aparılması | 9 dəq |
| Məlumat mübadiləsi | 5 dəq |
| Məlumat müzakirəsi | 4 dəq |
| Nəticələrin çıxarılması | 5 dəq |
| Yaradıcı tətbiqetmə | 8 dəq |

| Qiymətləndirmə | 2 dəq |
|---|---|

XXI əsrin ilk onilliyi mübaliğəsiz ana dilinin tədrisi üçün yeni bir mərhələdir. Ona görə ana dilinin tədrisi deyirik ki, çünki kurikulumun tətbiqi ibtidai siniflərdən başlamışdır. 2007-ci ildə I-IV siniflər, 2011-ci ildə isə V-XI siniflər üçün fənn kurikulumları təsdiq olunaraq istifadəyə verildi.

"Kurikulum" ümumtəhsil məktəblərində ana dilinin tədrisi vacib məsələlərdən biridir. Çünki hər bir vətəndaş öz ana dilini mükəmməl bilməlidir. Kurikulumyönümlü dərslərin uğurlu olması onun düzgün planlaşdırılması ilə əlaqədardır. Müəllim dərs planı tutarkən şagirdlərin yaş və anlaq səviyyəsini nəzərə almalıdır. Eləcə də, elə tapşırıqlar verməlidir ki, həm tənqidi, həm məntiqi, həm də yaradıcı təfəkkürləri inkişaf etsin.

Azərbaycan dilini tədris edərkən məzmun xətləri nəzərə alınmalıdır. Əsas məzmun xətlərindən biri də dil qaydalarıdır. Çünki düzgün nitq və ünsiyyət bacarıqlarının formalaşması üçün şagirdlərə dil qaydalarını öyrətmək vacibdir.

Üzvlənməyən köməkçi nitq hissələrinin tədrisinə dair bir çox metodik kitablarda məlumat verilmişdir. Lakin bu mövzu müasir aspektdə interaktiv üsul, forma və metodlarla yenidən nəzərdən keçirilməlidir.

Tədrisin orta məktəbdə fəal metodlarla keçirilməsi dərsi fəal təlimin mərhələsi kimi keçməyə imkan yaradır. Üzvlənməyən köməkçi nitq hissələri izah edərkən birinci motivasiya qurmaq lazımdır. Şagirdlərə sual veririk ki, sizcə, köməkçi nitq hissələrinin cümlədə sintaktik vəzifəsi nədir? 7-ci sinifdə morfologiya bölməsində köməkçi nitq hissələri haqqında öyrəndiyimiz bilikləri xatırlayın. Şagirdlərin cavablarını alıb hərbirinə təşəkkür edirik. Müəllimin şərhi kimi dərsi izah edirik.

Müəllim üzvlənməyən köməkçi nitq hissələrini tədris edərkən qeyd etməlidir ki, dilimizdə köməkçi nitq hissələrindən dördü- bağlayıcı, ədat, modal söz və nida üzvlənmir. Şagirdlərə belə sual verə bilər ki,sizcə, niyə qoşma bura daxil deyil?

Şagirdlərin fikirlərini müəllim dinləyir. Onlara təşəkkür edir və söyləyir ki, qoşma tək işlənə bilmir. "Leksik mənası olmasa da, cümlədə sözlərə qoşulub məna çaları yarada bilir."[5,78]"Qoşma başqa köməkçi nitq hissələrindən fərqlənir və qoşulduğu sözlə birlikdə cümlənin bir üzvü olur"[4,336]

Məsələn:

Hər ağac altında göz-göz bulaqlar,
Axır almaz kimi, göz yaşı kimi.( S. Vurğun)

Şagirdlərə göstərmək lazımdır ki, bu nümunədə kimi qoşması adlıq hallı ismə qoşulub. Bir daha əyani göstərdik ki,qoşma ayrılıqda işlənə bilmir. Müşahidələrdən də aydın olur ki, müəllim əyani şəkildə şagirdlərlə verilmiş nümunələri aydınlaşdırdıqda onlarda bu vərdişlərin möhkəmlənməsinə imkan yaradır

Üzvlənməyən köməkçi nitq hissələri haqqında ayrıca danışmaq lazımdır.

Bağlayıcı köməkçi nitq hissəsidir. Müəllim deməlidir ki, cümlənin üzvləri və mətnin komponentləri arasında əlaqə yaradan sözlər bağlayıcı adlanır. Şagirdlərə

başa salmaq lazımdır ki, bağlayıcının müxtəlif məna növləricümlə daxilində işləndikdə üzvlənməyən söz rolunda çıxış edir. Məsələn: Qarşılaşdırma bağlayıcıları qrupuna amma, ancaq, lakin,fəqət, yoxsa, halbuki, işə daxildir. Əli oxudu, amma cavab verə bilmədi. Müəllim şagirdlərə izah etməlidir ki, bu cümləni təhlil edəndə amma bağlayıcısını təhlil etmirik. Çünki üzvlənməyən sözdür, həmcins xəbərləri bir-biri ilə əlaqələndirmişdir. Eləcə də, səbəb bağlayıcıları: Çünki, ona görə ki, o səbəbdən, bunun üçün ki, bu səbəbə görə ki ,ona görə də və s.

Məsələn: Səndən küsmürəm, ona görə küsmürəm ki, nöqsanımı deyirsən...(M.İbrahimov) Şagirdlərə müəllim izah etməlidir ki,burada çünki üzvlənməyən köməkçi nitq hissəsidir. Çünki bağlayıcısı səbəb budaq cümləsinin komponentlərini bağlayıb. Sintaktik təhlil zamanı bu söz təhlil edilmir.

Müəllim çalışmalıdır ki, üzvlənməyən köməkçi nitq hissələrindən biri olan bağlayıcılara şagirdlər nümunə desin. Bu şagirdlərin dərsi daha yaxşı anlamasına imkan yaradır.

Yağış kəsilmişdi, ancaq hava açılmamışdı.
Aysel yazırdı,amma oxuya bilmirdi.
Sənan gecikdi, çünki kənddən gəlirdi.

Üzvlənməyən digər köməkçi nitq hissəsi ədatdır. Müəllim qeyd etməlidir ki, sözlərin, birləşmələrin və ya bütöv cümlələrin mənasını qüvvətləndirən, cümlədə müxtəlif məna yaradan sözlərə ədat deyilir. Ədatın müxtəlif məna növləri cümlə daxilində işləndikdə üzvlənməyən sözlər kimi çıxış edir. Qüvvətləndirici ədatların çox hissəsi üzvlənməyən söz olur. Məsələn: Ən ədatı sifətin çoxaltma dərəcəsini yaradır vəburda məna qüvvətləndirir. Lakin cümlə üzvü kimi üzvlənmir.

Nümunə: Ən yaxşı qiymət sənə verildi. Ən gözəl mükafat sənə verildi. Şagirdlərə göstəririk ki, bu nümunələrdə ən sözü təhlil olunmur. Ancaq müəyyən məna daşıyır. Sözün mənasını qüvvətləndirir.Başqa bir qüvvətləndirici ədata baxaq. Müəllim şagirdlərə bəzi ədatların omonimlik xüsusiyəti daşıdığını göstərməlidir.




Əvvəlcə, uşaqlara sual vermək lazımdır ki, bu cümlələrdəki çox sözləri arasındakı fərq nədir?

Müəllim şagirdlərə tədris etməlidir ki, Akif çox yaxşı tələbədir və uşaq çox yavaş yeriyir sözlərində çox sözü köməkçi nitq hissə kimi çıxış edir.

Çox yaxşı tələbə sözündəki çox ədatı sifətin dərəcəsini çoxaldır. Çox yavaş yeriyir cümləsində zərfi qüvvətləndirir. Lakin çox adam gəlmişdi və çox keçmişəm bu dağlardan cümləsində əsas nitq hissəsidir. Deməli, çox sözü bəzən üzvlənir, bəzən isə üzvlənmir. Köməkçi nitq hissəsi kimi işləndikdə cümlədə üzvlənməyən söz olur.

Tədris zamanı şagirdlərə ki ədatını izah edirik. Üzvlənməyən köməkçi nitq hissəsi olan ki ədatı həm qüvvətləndirici, həm sual ədatı olur. Eləcə də, bağlayıcı kimi çıxış edə bilir.

Müəllim onların arasında olan fərqi şagirdlərə nümunələr ilə izah etməlidir. Qeyd etməlidir ki, hər iki köməkçi nitq hissəsi kimi ki üzvlənməyən sözdür. Çünki bağlayıcı və ədat üzvlənməyən köməkçi nitq hissələri sırasına daxildir. Onların omonimliyini əyani şagirdlərə göstərmək lazımdır. Bunun üçün də müəllim yeni təlim metodlarından istifadə etməlidir.




Şagirdlərə söyləmək lazımdır ki, gördüyünüz kimi ədat rolunda olduğu zaman qüvvətləndirir, eləcə də sual mənası daşıyır. “Ki köməkçi sözü tabeli mürəkkəb

cümlənin budaq cümlələrini baş cümləyə bağlamaq vəzifəsini daşıdığı zaman tabelilik bağlayıcısı olur[ 3.247]

Təsdiq və inkar ədatları da üzvlənməyən söz ola bilər. Buraya hə, yox, bəli, xeyr, heç, əsla heç də ədatları aiddir. Hə, mən razıyam. Heç elə şey yoxdur.

Müəllim şagirdlərə göstərməlidir ki, hə, heç sözləri üzvlənməyən sözlərdir.

Məsələn: Hə, mən gəlirəm. Şagirdlər üçün bu cümləni sintaktik təhlil edirik.

Göründüyü kimi cümləni təhlil edərkən hə sözü təhlil edilmir. Çünki bu üzvlənməyən sözdür.

Müəllim qeyd edir ki, üzvlənməyən sözlər gördüyünüz kimi sintaktik təhlil edilmir.




Ha ədatı əmr şəklinə aid sözlərdən sonra işlənərsə əmr ,qalan vəziyyətlərdəqüvv-ətləndirici ədat kimi çıxış edir. Hər iki halda üzvlənməyən söz olur.

Məsələn:Müəllimdir ha.

- Sən mənə bir şey demək istəyirsən?
- Yox, nə olub ki?
- Siz də bu kitabdan almaq istəyirsiniz?
- Hə,əgər mümkün olsa.
- Sən ona dedin ki, kişi özünü öldürüb ?
- Bəli, xanım.(Ə.Haqverdiyev)
- Dedimmi, o, cismən yaşasa da, duyğusuz bir varlığa çevrilir?
- Bəli, professor. ( S.Qədirzadə)
- Demək, əsgərlikdən gəlirsən?
- Bəli, əmi ( S.Qədirzadə)

Şagirdlərə göstəririk ki, bu cümlələrdə yox, hə, bəli, bəli , bəli sözləri üzvlənməyən sözdür.

Dərsin əvvəlində qeyd etmişdik ki, dörd köməkçi nitq hissəsi üvlənmir. Onların ikisi barədə qısa da olsa, məlumat verdik.

Modal sözlərin məna növləri də üzvlənməyən söz olur.Sintaksisdə üzvlənməyən cümlə kimi çıxış edir. Məsələn: Təsdiq ədatlarına nümunə göstərək. Buraya əlbəttə,

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2024
Səh. 217-226
doğrudan, sözsüz, şübhəsiz, doğrudur, düzü,düzdür və s. Müəllim şagirdlərə nümunə göstərməlidir.

- Siz də axşam məktəbində oxuyursunuz?
- Əlbəttə, necə məgər?
- Necə olsa, bunlarla çalışmaq yara bağlamaqdan yaxşıdır.
- Əlbəttə ki ( M. C. Paşayev)
- Oxşayır.
- Yəqin?
- Yəqin ( S.Əhmədov)

Müəllim şagirdlərə deməlidir ki, bu cümlədəki əlbəttə, yəqin,əlbəttə ki sözləri müəyyən münasibət ifadə etsə də, üzvlənməyən sözdür.

Heyif, deyirəm gedib anama danışım ,bəlkə, o, bir tədbir tökə ( S. Rəhman)Şagirdlərə demək lazımdır ki, təəssüf mənalı heyif, təəssüf, əfsus kimi modal sözlər üzvlənməyən söz olur. Şagirdlərə modal sözlərin omonimliyi başa salınmalıdır. Çünki şagird bilməlidir ki,bəzi sözlər əsas nitq hissəsi kimi çıxış etdikdə üzvlənən, modal söz kimi çıxış etdikdə isə üzvlənməyən söz olur. Belə sözlər sintaksisdə söz-cümlələr və vokativ cümlə adlanır.




Şagirdlərə deyirik ki, yaxşı sözü modal söz kimi işləndikdə üzvlənməyən söz olur. Nümunələrin sayını çoxalda bilərik.

Modal sözlər kifayət qədər predikativ keyfiyyətə malikdir və söz-cümlə kimi işlənir: Əlbətə, görünür, bəlkə də, şəksiz və s.

- Deyəsən, darğanın evinə gedirlər.
- Şübhəsiz (F.Kərimzadə)

Dialoq zamanı cavab replikada işlənən modal söz əvvəl söylənilən fikrə modallıq ifadə edir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 217-226*

- Deməli, Siz də qısqancsınız?
- Əlbəttə, əlbəttə (Y.V.Çəmənzəminli)

Nidalar sintaksisdəüzvlənməyən cümlə olur. Məsələn: Bərəkalla, kişi qızı, bərəkalla, kişi qızı, afərin, bərəkalla,fərasət! ( C.Cabbarlı),Hamı bir ağızdan yengəyə səs verdi: -Maşallah! Maşallah! (C.Bərgüşad) Of, mən gedim. Ay haray.... köməyə!(C.Bərgüşad),

Nidaların da omonimliyini izah etmək lazımdır.Bunun üçün də müəllim sxemlərdən , cədvəllərdən istifadə edərsə, dərs daha yadda qalan olacaq.

Müəllim bir daha izah etməlidir ki, əgər nida olarsa, üzvlənməyən söz olur. Əsas nitq hissəsi olarsa, üzvlənən söz olur. Məsələn:




İsim: Ahın dağlara , bala!     Nida: Ah, necə kef çəkməli əyam idi

Şagirdlərə söyləyirik ki, ah sözü isim olduqda üzvlənən söz olur. Nida olarsa, üzvlənməyən söz olur. Yazı lövhəsində nümunə yazırıq. Başqa nümunə yazırıq. Məsələn: İsim: Ox ataq, qurşaq tutaq. Nida: Ox, yandı ürəyim!

Qəzənfər Kazımov yazır ki, söz-cümlələr funksiyasında hə, bəli, yox, xeyr, heç,heç də kimi ədatlar, ah, aha, oho, ey, əfsus və s. kimi nidalar, əlbəttə, əsla, qətiyyən , sözsüz, baş üstə, şübhəsiz və s. kimi modal sözlər işlənir. Məsələn: Ah, əfsus, keçdi o gözəl günlər. Ah, bu nə işdi başıma gəlir?

Müəllim şagirdlərdən nümunə soruşmalıdır. Məsələn: Vah! Batdıq biz. Of, əllərin qurusun, cəllad. Sözsüz, qələbə gec-tez bizim olacaqdır. Əlbəttə ki, düz sözə zaval yoxdur.

Müəllim qeyd edir ki, gördüyünüz kimi bu köməkçi nitq hissələrinincümlədə qrammatik mənası var. Lakin bu sözlər cümlədə üzvlənmir.

- Vah! <u>Batdıq biz.</u>

Üzvlənməyən sözlər sintaksisdə üzvlənməyən cümlələr rolunda çıxış edir. Şagirdlərin məlumatı olsun deyə onu da qeyd etmək lazımdır ki, üzvlənməyən cümlələr iki qrupa ayrılır:

1. Söz- cümlələr
2. Vokativ cümlələr

Şagirdlərə hər üzvlənməyən cümlələrə aid nümunə deyirik. Lakin onu da qeyd edirik ki, bu cümlələr haqqında ətraflı sintaksisdə məlumat veriləcək.

1.Söz-cümlə :

- Gəl seçək
- Yaxşı...

Demək , həqiqəti söyləsəm, incimərsən?

-Yox, yox...(S.Qədirzadə)

2. Vokativ cümlə:

Ay uşaq! Ay camaat!(M.C.Paşayev)

Müəllim bu cür nəzəri məlumatları şagirdlərə verdikdən sonra növbəti mərhəyə keçir. Tədqiqatın aparılması mərhələsində şagirdləri qruplara bölür, tapşırıqları onlara təqdim edir.

**Kartoçka №1**

Verilmiş cümlələrdə üzvlənməyən köməkçi nitq hissələrini göstərin .

1.Düzdür, mən səni gözləyirdim.
2.Sənin də fikirlərin düzdür.
3.Şübhəsiz, bu gün gələcək.
4.Şübhəsiz danışır.

**Kartoçka №2**

Həm əsas , həm də modal söz kimi işlədilə bilən sözləri nümunədə işlədib fərqləndirin.

1. Müxtəsər, daha gedək.
2. Müxtəsər cümlədir.
3. Deyəsən, sabah isti olacaq.
4. Gərək özün deyəsən.

**Kartoçka №3**

Həm əsas, həm nida ilə omonim olan sözlərə nümunə yazın.

1.Ahın dağlara olsun
2.Ah, o günlər bitdi.
3.Ay kişi, daha bəsdir.
4.Ay və Yer birlikdə Günəş ətrafında ildə bir tam dövr edirlər.

Tədqiqat mərhələsindən sonra şagirdlərə məlumat mübadiləsi üçün vaxt veririk. Çalışmaq lazımdır ki, bütün şagirdləri dərsə cəlb etmək olsun.

Məlumat müzakirəsində hər qrupdan bir nəfər yazı taxtasına çıxır. Bu zaman hər bir qrup üzvü tapşırığı təqdim edir. Digər qrup üzvləri də ona qulaq asır. Əgər lazım gələrsə , öz fikirlərini təqdim edirlər.

Birinci qrupun tapşırığa verdiyi cavab belədir:

Birinci nümunədə düzdür modal söz, ikinci cümlədə isə sifətdir. Üçüncü nümunədə şübhəsiz modal söz, sonuncu nümunədə isə zərfdir.

İkinci qrupun tapşırığa verdiyi cavab belədir:

Birinci nümunədə müxtəsər modal söz, ikinci cümlədə isə zərfdir. Üçüncü cümlədə deyəsən modal söz, sonuncu nümunədə isə feildir.

Üçüncü qrupun tapşırığa verdiyi cavab belədir:

Birinci cümlədə ah sözü isim, digər cümlədə ah isə nidadır. Üçüncü nümunədə ay nida, sonuncu cümlədə isə isimdir.

Nəticə olaraq qeyd edilir ki, üzvlənməyən köməkçi nitq hissələri sintaktik təhlil olunmur. Sintaktsisdə üzvlənməyən cümlələr kimi çıxış edir. Dörd köməkçi nitq hissəsi üzvlənməyən sözlər qrupunu yaradır. Bura bağlayıcı, ədat, modal sözlər və nida aid edilir.

Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə bədii əsərlərdən üzvlənməyən sözləri tapmağı tapşırırıq. Məsələn:

Xumar: Amin! Sizin sənətinizə söz ola bilməz.

Mədinə: Axı, gənc, günahsız bir qızın , təmiz , əxlaqlı bir oğlanı , xalqın başına and içdiyi sənətkarı sevməsi səni nə üçün məhv edir?

Dilşad. Oho... Şahsuvarov (İ.Əfəndiyev)

Atakişi. Hə, kətti-küttü havası olanda nə olar?(C.Cabbarlı)

Bəli, bir aydan artıqdır ki, Mehtaban Məhəmməd qızı mənim əndərunumdur!( S.Rəhimov)

Burada amin, axı, oho, hə, bəli sözləri üzvlənməyən köməkçi nitq hissələrdir.

Ev tapşırığı olaraq şagirdlərə üzvlənməyən sözlərə aid çalışmalar tapşırırıq. Çünki çalışma Azərbaycan dili dərslərində mühüm yer tutur. Bu zaman çalışmalar sistemindən istifadə daha effektlidir. Bu o deməkdir ki, bacarıq və vərdişlərin keyfiyyəti çalışmaların miqdarca çoxluğundan yox, onların müəyyən sistemdə aparılmasından aslıdır .

Qiymətləndirmə meyarlar üzrə aparılır. Lakin bəzən özünə qiymət vermə təcrübəsindən , qarşılıqlı qiymətləndirmələrdən də istifadə edilə bilər

## Ədəbiyyat siyahısı

1.Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası Bakı, "Təhsil", 2008

2. Balıyev H, Balıyev A." Azərbaycan dilinin tədrisi metodikası", Bakı ,2014,379

3. Hüseynzadə M., "Müasir Azərbaycan dili (morfologiyası)", III hissə, Bakı,1973,370 s.

4. Kazımov Q. "Müasir Azərbaycan dili" Morfologiya Bakı,2010,398 səh

5. R.İsmayılov, A.Rüstəmova, H.Allahverdi, S.Məmmədova "Ümumi təhsil müəssisələrinin 7-ci sinifləri üçün Azərbaycan dili dərslik, Bakı, "Şərq-Qərb", 175s.

**Elmi rəhbər.f.ü.f.d.dos. Könül Dənziyeva**